# "İPƏK YOLU"nun UNUDULMAZ TƏƏSSÜRATLARI

*Qədim dövrlərdə Azərbaycanla başqa dövlətlər arasında mövcud olan "İpək yolu" ticarət əlaqələrinin möhkəmləndirilməsinə xidmət edib. Sözsüz ki, ondan əldə olunan sərvətlər artıq tükənib. Haqqında söhbət açacağımız "İpək yolu" isə mənəvi zənginliyə xidmət edir. Odur ki, təəssüratları da unudulmazdır. Bu yerdə görkəmli alim və mütəfəkkir Mir Möhsüm Nəvvabın müdrik kəlamı yadıma düşür: "Elm və hünərdən yadigar qoymaq yaxşıdır, nəinki mal və əmlakdan". Bəli, "İpək yolu" Beynəlxalq Musiqi Festivalı elm və sənətin, onları təqdim etmək iqtidarında olan hünər sahiblərinin sərvətidir. Bu festivalın Şəkidə keçirilməsi də təsadüfi deyil.*









Əvvəla, Şəki "İpək yolu" ticarət mərkəzi və ipəkçiliyin məskəni olmaqla bərabər, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindəndir. Buranın təbiəti də çox füsunkar və qəlboxşayandır. Şəki sənət ocağı, sənətkarlar diyarıdır. Elm və incəsənət aləminin neçə-neçə simaları Şəkidə doğulub, boya-başa çatıb, musiqi, ədəbiyyat, təsviri sənət və digər sahələrin görkəmli şəxsiyyətləri olublar. Bu deyilənləri "İpək yolu" Beynəlxalq Musiqi Festivalının Şəkidə keçirilməsinin məqsədyönlü olmasının əsas məziyyətləridir.

Artıq 14-cü dəfə sənətkarlar diyarı Şəkidə sənət bayramı keçirildi. Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalını Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov şəkililər üçün əsl musiqi bayramı kimi dəyərləndirir: inanıram ki, Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı hər il olduğu kimi, bu il də parlaq mədəniyyət və xalqlararası dostluq bayramı kimi xoş təəssüratlarla hafizələrdə yaşayacaq".

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən XIV Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı 4-6 iyul tarixlərində baş tutdu. 3 gün ərzində Şəkinin Yuxarı Karvansara, Marxal Yay Teatrı, Şəki şəhər Heydər Əliyev Mərkəzində və Şəki Musiqi Kollecində rəngarəng konsert proqramları tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

İyulun 4-də Yuxarı Karvansarada respublikamızda yaşayan azsaylı xalqlardan ibarət xor, mahnı və rəqs ansambllarının çıxışları oldu. Konsertdə talış, avar, ləzgi, malakan, tat icmalarının folklor qrupları mahnı və rəqsləri təqdim etdilər. Onların çıxışlarının maraqlı cəhətlərindən biri də öz mahnı və rəqslərini Azərbaycan musiqi nümunələri üzərində qurmaları idi. Bu da azsaylı xalqların yaşadıqları ölkənin musiqi irsinə bələd olaraq ondan bəhrələnməsinin və xalqımızın mədəniyyətinə göstərdikləri hörmət və diqqətin ifadəsidir.

Qardaş Türkiyə Respublikasından gələn Sivas Folklor Təhsil Mərkəzi, Xalq musiqisi və Xalq rəqsləri Birliyinin kollektivi rəngarəng repertuarı ilə Türkiyə Azərbaycan dostluğunu möhtəşəm musiqi sədaları ilə daha da rövnəqləndirdilər. Səhnədə dalğalanan Türkiyə və Azərbaycan bayraqları, tamaşaçıların "bir millət, iki dövlət" sədaları konsert boyu ardı-arası kəsilməyən alqışlarla müşayiət olundu.

5 iyul tarixində festival öz işini Şəki Musiqi Kollecində davam etdirdi. Bu, artıq bir ənənəyə çevrilib. 2009-cu ildən başlayan "İpək yolu" Beynəlxalq Musiqi Festivalının yaradıcı heyəti hər dəfə bu musiqi ocağının qonağı olur, kollecin müəllim və tələbələrinin hazırladıqları konsert proqramına tamaşa edir, onlarla maraqlı söhbətlər aparırlar. Festivalın bədii rəhbəri Firəngiz Əlizadə bir neçə il öncə öz şəxsi royalını da məhz bu kollecə hədiyyə edib. Bundan başqa, Firəngiz xanım Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən nəşr olunan çoxlu sayda kitabları kollecə hədiyyə etməklə bu illər ərzində onların kitabxanasının da zənginləşməsinə kömək edib.

Şəki Musiqi Kollecində budəfəki görüş də çox maraqlı və yaddaqalan oldu. Əvvəlcə Kollecin direktoru Sərdar Şərifov hazırladıqları konsert proqramının dahi Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinə həsr olunduğunu söylədi. Beləliklə, səhnəyə 3 kollektiv dəvət olundu: kollecin xalq çalğı alətləri, kamera orkestrləri və xor kollektivi. Xalq çalğı alətləri orkestrinin rəhbəri Mənsur Qaffarovun dirijorluğunda Üzeyir bəyin "Koroğlu" operasının uvertürası ilə başlayan konsert solistlərin ifasında rəngarəng musiqi nömrələri ilə davam etdi.

Azərbaycan Bəstəkarlar İttifaqının Şəki bölməsinin rəhbəri İsmayıl Əliyevin Üzeyir bəyə ithaf etdiyi yeni əsərinin səslənməsi, Bakı şəhər 12 nömrəli Tofiq Quliyev adına 11 illik musiqi məktəbinin 8-ci sinif şagirdi pianoçu Kamal Axundovun ifası və sonda kollecin xor kollektivinin ifasında Xalq artisti Firəngiz Əlizadənin "Zəfər" marşı festival iştirakçıları tərəfindən rəğbətlə qarşılandı.

Festivalın 2-ci günü Marxal Yay Teatrında C.Cahangirov adına Xor kollektivinin də çıxışı oldu. Əməkdar müəllim, Prezident mükafatçısı Təranə Yusifovanın rəhbərliyi ilə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından xor səhnələri və bəstəkarın əsərlərindən digər nümunələr ifa olundu.

İyulun 6-da Şəki şəhər Heydər Əliyev Mərkəzində Çin Xalq Respublikasının Şimal-Qərb Pedaqoji Universiteti Musiqi Kollecinin məzunları çıxış etdilər. Çin Respublikasının Azərbaycandakı səfiri xanım Lu Mai çıxış edərək festivalın bədii rəhbəri Firəngiz Əlizadəyə və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubova təşəkkürünü bildirdi, Azərbaycan və Çin arasındakı dostluq münasibətlərini yüksək qiymətləndirdi.

Festivalın möhtəşəm bağlanış mərasimi şanlı Qələbəmizin 5 illiyinə həsr olunmuşdur. 44 günlük Vətən müharibəsindəki Zəfərimizin 5 iliyinin musiqi müjdəsi Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin ifasında təqdim olundu. Əməkdar artist, polkovnik-leytenant Səməd Vəkilovun idarəsilə orkestrin və solistlərin ifasında Azərbaycan və Türk bəstəkarlarının hərbi mahnı və marşları səsləndi.

Sonda Xalq artisti Firəngiz Əlizadənin musiqisi əsasında rejissor, Əməkdar incəsənət xadimi Cahangir Zeynallının hazırladığı videoçarx nümayiş olundu. Burada Ulu Öndər Heydər Əliyevin qələbə inamını, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin Zəfər müjdəsini və eləcə də xalqımızın Qələbə sevincini əks etdirən kadrların göstərilməsi və tamaşaçıların bu tarixi faktları ayaqüstə qarşılamaları festivala təntənəli yekun vurdu. Əminik ki, XIV Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı məhz bu və ya digər yaddaqalan kadrlarla tarixə çevriləcək.

**Səadət TƏHMİRAZQIZI,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**Əməkdar mədəniyyət işçisi.**